

# Müstəqilliyimizi möhkəmləndirən, xalqımıza Zəfər yaşadan Lider

**"Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!". Bu sözləri 2018-ci aprelin 11-də keçirilmiş növbədənkənar prezident seçkilərində seçicilərin 86,02 faizinin səsinin qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev Milli Məclisdə andiçmə mərasimində səsləndirmişdir.**

Azərbaycan xalqı birlik, həmrəylik nümayiş etdirərək öz Prezidentini, öz liderini müəyyənləşdirdi. Xalqına, millətinə ləyaqətlə xidmət edən Prezident İlham Əliyevə etimad göstərərək gələcəyə onunla addımlamaq istədi. Səsvermə hüququna malik olan vətəndaşların 74,3 faizinin iştirak etdiyi, şəffaf, azad, demokratik şəraitdə keçirilən seçkilərdə mütləq əksəriyyətin səsini qazanan İlham Əliyev 4-cü dəfə Azərbaycan Respublikasının Prezidenti seçildi.

Seçicilərin böyük əksəriyyətinin Prezident İlham Əliyevə səs verməsi, əslində, xalqın bütün destruktiv və xain qüvvələrə yox deməyinin təzahürü idi. Azərbaycan xalqı öz rəhbərini seçərək radikallara, öz dövlətinə qarşı çıxış edən, millətinin mənafeyini əsas tutmayan, xarici qrant, ianə hesabına fəaliyyət göstərən qüvvələrə layiq olduqları yeri göstərdi. Öz taleyini müəyyənləşdirmək iqtidarında olan Azərbaycan xalqı 2018-ci ildə keçirilən prezident seçkilərində Prezident İlham Əliyevə səs verməklə ölkədə aparılan demokratik islahatlara, inkişafa, tərəqqiyə, təhlükəsizliyə, xalqın xoş güzəranına hesablanmış gələcəyə səs verdi.

Hər bir dövlətin özünütəsdiqində, beynəlxalq siyasətinin formalaşmasında onun lideri mühüm rol oynayır. İlham Əliyevin dünyagörüşü, təcrübəsi və siyasi iradəsi bu gün xalqımıza qürurla öyünəcəyi uğurlar yaşadır. Müstəqil, dünyəvi dövlət olan Azərbaycanın müasirləşməsi, bölgədəki mövqelərinin möhkəmlənməsi onu irəliyə, hərtərəfli inkişafa doğru aparır. Ölkədə gedən proseslər, bölgədəki mövqeyimiz, dünyada baş verənlərə təsir imkanlarımızın genişlənməsi ölkə başçımızın apardığı məqsədyönlü siyasətin nəticəsidir. Bu gün demokratik cəmiyyət, hüquqi dövlət, insan haqlarının aliliyi, siyasi plüralizm prinsiplərini rəhbər tutan Azərbaycanın mövqeyi dünyanın, regionun əsas strateji və qlobal problemlərinin həllində nəzərə alınır, meqalayihələr ölkəmizin iştirakı və milli maraqlarına uyğun olaraq həyata keçirilir.

2003-cü ildən ölkəyə rəhbərlik edən Prezident İlham Əliyevin düşünülmüş islahatları, müdrik qərarları Azərbaycanı dünyada öndə gedən ölkələrdən birinə çevirmiş, onun rəhbərliyi ilə həyata keçirilən konsepsiyalar, aparılan sosial-iqtisadi siyasət bütün sahələrdə önəmli dönüş yaratmışdır. Bu illərdə ölkəmiz böyük inkişaf yolu keçmiş, dövlətçiliyimizin əsasları möhkəmlənmiş, qüdrəti artmış, iqtisadiyyatı güclənmişdir. İnsan amili, xalqın rifahı və milli maraqlar dövlət siyasətinin strateji prioriteti olmuşdur. Demokratik inkişaf yolu keçən Azərbaycanda söz, mətbuat, sərbəst toplaşma və siyasi fəaliyyət azadlığı təmin edilmişdir.

(davamı 3-cü səhifədə)

Respublika.- 2022- ci aprel.- 10 aprel.- S. 1.



# Müstəqilliyimizi möhkəmləndirən, xalqımıza Zəfər yaşadan Lider

(əvvəli 1-ci səhifədə)

"İqtisadi inkişaf sürətinə görə Azərbaycan qabaqcıl ölkələr sırasındadır. Biz bu maddi dəyərləri, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir və beləliklə, ölkənin intellektual potensialı da möhkəmlənir. Bu gün vaxt gəlibdir ki, biz məhz bu sahəyə sərmayə qoyaq" - deyən Prezident İlham Əliyev ölkəyə rəhbərliyinin ilk illərindən genişmiqyaslı sosial-iqtisadi dəyişikliklərin aparılmasını, zəruri təhsil islahatlarını uğurla həyata keçirməyə başladı. O, elm və təhsilin problemlərini diqqət mərkəzində saxlayaraq ulu öndərin bu sahədə müəyyənləşdirdiyi prioritetlərin varisliyini təmin etdi, ölkəmizdə bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də geniş islahatlar aparıldı və bu sahədə mühüm nailiyyətlər əldə edildi.

Xalqın gələcəyini milli ideologiya, azərbaycançılıq məfkurəsi əsasında quran dövlət başçısının uzaqgörən siyasəti sayəsində Azərbaycan xalqı vahid milli ideya ətrafında birləşdi, ölkədə dinlərarası, millətlərarası münasibətlər nümunəvi xarakter aldı. Bu gün ölkəmiz demokratik, hüquqi və dünyəvi dövlət, eyni zamanda bir çox millətlərin və konfessiyaların dinc, yanaşı yaşamasının nümunəsi kimi tanınır, həm insan hüquqlarının yüksək səviyyədə qorunduğu, həm tolerantlığın həyat normasına çevrildiyi, həm də milli-mənəvi dəyərlərə böyük önəm verildiyi unikal ölkə olaraq qəbul edilir. Prezident İlham Əliyevin xalqımızın dini dəyərlərinə, müxtəlif dinlərə və sivilizasiyalara hörmətlə yanaşması, milli-mənəvi dəyərlərə həssas münasibətin dövlət siyasətinin mühüm prioritetlərindən birinə çevrilməsi, ölkədə güclü tolerantlıq ənənələrinin getdikcə daha da möhkəmləndirilməsi Azərbaycanı dünyada multikulturalizmin əsas mərkəzinə çevirib. Son illər qlobal əhəmiyyətli çoxsaylı sammitlərin, forumların, konfrans və seminarların ölkəmizdə təşkil olunması bunun əyani sübutudur.

2009-cu ildə Bakının, 2018-ci ildə isə Naxçıvanın İslam mədəniyyətinin paytaxtı seçilməsi, ölkəmizdə ardıcıl olaraq mədəniyyətlərarası və dinlərarası dialoq, milli-dini tolerantlıq üzrə beynəlxalq konfransların keçirilməsi Azərbaycanda tarixi tolerantlıq ənənəsinin qorunub daha da zənginləşdirilməsinin göstəricisidir.

Bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də bu illər ərzində genişmiqyaslı islahatlar aparılmışdır. "Ölkə iqtisadi cəhətdən inkişaf edə bilər, siyasi cəhətdən də beynəlxalq mövqeləri güclü ola bilər, ancaq əgər biz xalqımızın əsas, təməl prinsiplərini diqqətdən kənarda qoysaq, onda ölkəmizin uğurlu inkişafı dayanıqlı ola bilməz" - deyən ölkə başçımız mədəniyyətin inkişafına, eləcə də xalqımızın əsrlər boyu yaratdığı mədəni irs nümunələrinin qorunması və gələcək nəsillərə çatdırılması işinə də xüsusi həssaslıqla yanaşmış, Azərbaycan xalqının tarixi irsinin qorunması və bərpası məsələlərini diqqətdə saxlamışdır.

Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət nəticəsində ölkəmiz gələcəyə hesablanmış diplomatik uğurlara imza atmış, BMT, AŞ, ATƏT, NATO və digər mötəbər təşkilatların yüksək tribunalarından qətiyyətlə çıxış edərək bir çox məsələlərdə beynəlxalq aləmin Azərbaycanın rəyi ilə razılaşmasına nail olmuşdur. Bu gün ümummilli lider Heydər Əliyevin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu siyasətini uğurla davam etdirən dövlət başçısının məqsədyönlü daxili və xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq və regional problemlərin həllində rolu və nüfuzu getdikcə artır. Artıq Azərbaycan bölgədə mövqelərini daha da möhkəmləndirmiş, beynəlxalq müstəvidə layiqli yerini tutmuş, Prezident İlham Əliyevin ardıcıl, çoxillik və ən başlıcası isə hərtərəfli, düşünülmüş, ölçülüb-biçilmiş dövlət siyasəti sayəsində bölgədə və dünyada regional liderliyini təmin etmişdir.

"Ancaq iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilərlər" - deyən Prezident İlham Əliyev davamlı olaraq ölkə iqtisadiyyatında mühüm islahatların təşəbbüskarı olmuşdur. Müasir dövrün tələblərinə uyğun həyata keçirilən uğurlu siyasət hər bir sahədə olduğu kimi, ölkə iqtisadiyyatında da özünü göstərmişdir. Bu sahənin hərtərəfli inkişafını təmin etmək, o cümlədən davamlı inkişafına və şaxələndirilməsinə nail olmaq, regionlarda müxtəlif təyinatlı sənaye müəssisələrini istifadəyə vermək, minlərlə yeni iş yeri yaratmaq Azərbaycan dövlətinin iqtisadi siyasətinin əsasını təşkil etmişdir. 2003-2018-ci illər ölkəmizin tarixinə möhtəşəm iqtisadi yüksəliş dövrü kimi daxil olmuşdur. Bu dövrdə ümumi daxili məhsul 3,2 dəfə, büdcə gəlirləri 13,5 dəfə, ölkənin strateji valyuta ehtiyatları 26,6 dəfə artmışdır. Maliyyə imkanları əsaslı şəkildə yaxşılaşan dövlətimizdə xarici ticarət dövriyyəsi 4,6 dəfə, ixracın həcmi isə 6 dəfə yüksəlmiş, regionlarda ümumi məhsul buraxılışının artımı 3,6 dəfəyə bərabər olmuşdur. Əhalinin nominal gəlirləri 8,6 dəfə, minimum əməkhaqqı 12,9 dəfə, xaricə səfər edən vətəndaşların sayı 2,2 dəfə, əhalinin banklardakı əmanəti 30 dəfə artmışdır. 1 958 400 yeni iş yeri açılmış, 326,6 min nəfərə ünvanlı dövlət sosial yardım verilmiş, işsizliyin səviyyəsi 9,2 faizdən 5 faizə, yoxsulluğun səviyyəsi 44,7 faizdən 5,4 faizə enmiş, 245 min nəfər məcburi köçkün mənzillə təmin olunmuşdur.

Azərbaycanda səhiyyə islahatları 2004-cü ildən etibarən daha da genişlənmiş, ölkə səhiyyəsi sürətlə inkişaf etmişdir. Dövlət büdcəsindən böyük xərclər tələb edən bu sahəyə ayrılan vəsait son illər ərzində dəfələrlə artırılmış, Bakıda və respublikamızın ayrı-ayrı bölgələrində 640-dan çox tibb müəssisələri tikilmiş və ya əsaslı təmir edilmiş, müasir texnika və avadanlıqlarla təchiz olunmuşdur. Eyni zamanda, özəl səhiyyə xidməti inkişaf etdirilmiş, səhiyyənin maddi-texniki təminatı möhkəmləndirilmişdir. Ölkə əhalisinin sağlamlığının qorunması istiqamətində atılan ən mühüm addımlardan biri isə 2008-ci ildən etibarən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan bütün müalicə-profilaktika müəssisələrində pullu xidmətin ləğv edilməsi olmuşdur. Səhiyyə sistemində aparılan islahatların mühüm istiqamətlərindən biri də Azərbaycanda əhali arasında məcburi tibbi sığortanın tətbiq edilməsi olmuşdur.

Vətəndaşların sağlamlığını hər zaman hər şeydən üstün tutan ölkə başçısının göstərişlərinə əsasən, səhiyyə sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni tibb müəssisələrinin tikintisi, əsaslı təmiri və yenidən qurulması, onların ən müasir tibb avadanlıqları ilə təchiz edilməsi, səhiyyə islahatları planlı şəkildə, mütəmadi olaraq davam etdirilir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 27 dekabr tarixli Sərəncamına əsasən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, 2016-cı il 24 noyabr tarixli Fərmanı ilə onun əsasında "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli Fərmanına əsasən Agentlik tərəfindən "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" (TƏBİB) publik hüquqi şəxsin yaradılması da aparılan genişmiqyaslı islahatların nümunəsidir.

Prezident İlham Əliyevin ölkəyə rəhbərliyinin ilk illərindən başlayaraq idmanın inkişafı daim dövlətin diqqət mərkəzində olmuş, ölkənin bir çox şəhərlərində olimpiya idman kompleksləri tikilib istifadəyə verilmiş, xüsusilə gənclər arasında idmanla məşğulluğun daha geniş yayılması üçün çoxsaylı tədbirlər həyata keçirilmişdir. Bu illərdə bölgələrdə 43 Olimpiya İdman Mərkəzi yaradılmışdır. Ölkə idmançıları ötən illər ərzində Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında böyük qələbələr qazanmışlar.

Ulu öndərin ordu quruculuğu siyasəti Prezident İlham Əliyevin hakimiyyəti dönəmində nəinki uğurla davam etdirilmiş, həm də miqyas və mahiyyət etibarilə yeni mərhələyə qədəm qoymuşdu. Müasir ordu quruculuğu istiqamətində İlham Əliyevin atdığı çoxsaylı addımlar, həyata keçirdiyi kompleks tədbirlər cəmi bir neçə il ərzində Azərbaycan ordusunu adi, sıradan bir ordudan dünyanın ən qüdrətli orduları sırasında qərarlaşdırdı. 2003-2018-ci illər Azərbaycan Ordusunun sürətli inkişaf dövrüdür. Təchizat, silah-sursat, texnika, döyüş qabiliyyəti baxımından ordumuz güclü ordular sırasına daxil olub. 2016-cı ilin Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü, qələbə əzmini göstərdi.

İlham Əliyevin ordu quruculuğu prosesində həyata keçirdiyi mühüm addımlardan biri hərbçilərin sosial rifahının yüksəldilməsi, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması, əməkhaqlarının mütəmadi şəkildə artırılması ilə bağlı olub. Silahlı Qüvvələrin Ali Baş Komandanı hər zaman vətəni qoruyan, onun təhlükəsizliyini təmin edən, düşmən hücumlarına və təxribatlarına özünü sipər edən hərbçilərin sosial rifahını, yaşayış səviyyəsini yüksək tutur. Şəhid ailələrinə, o cümlədən sağlamlığını itirən hərbçilərə dövlət qayğısının artırılması, onların mənzil probleminin köklü şəkildə həll edilməsi istiqamətində də ciddi addımlar atılıb. 2017-ci ildə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərdən və şəhid ailələrindən 315 nəfər mənzil və fərdi evlə təmin edilmişlər. Prezident İlham Əliyevin 2 avqust 2018-ci il tarixli Sərəncamı ilə Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 2018-ci ildə əlavə olaraq minimum 300 mənzilin alınması üçün 20 milyon manat vəsait ayrılmışdır. Bütün bunlar Ali Baş Komandanın hər bir Azərbaycan zabitinə, əsgərinə, onların ailə üzvlərinə olan doğma münasibətinin göstəricisidir.

Prezident İlham Əliyevin hər bir qərarı, atdığı hər bir addımı Azərbaycan dövlətinin dayaqlarının möhkəmlənməsinə, müstəqilliyimizin qorunub saxlanmasına xidmət edir. Azərbaycanın milli maraqlarının həyata keçirilməsi, ölkəmizin beynəlxalq nüfuzunun daha da artırılması, güclü dövlət və müasir cəmiyyətin formalaşdırılması ölkə başçısının məqsədyönlü siyasətinin mühüm istiqamətidir.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**